

**Bayramlı Rasim Allahyar oğlu** 28 mart 1957-ci ildə Gürcüstan Respublikasının Saqaredjo rayonunun Yor – Muğanlı kəndində anadan olmuşdur. 1978-1983 – cü illərdə Azərbaycan İnşaat Mühəndislər İnstitutunun İnşaat-texnologiya fakültəsinin Yapışdırıcı materiallarının kimyəvi texnologiyası ixtisasında təhsil almış, fərqlənmə diploma ilə bitirərək mühəndis – kimyaçı texnoloq diplomunu almışdır. 1983-1985 – ci illərdə Bakı Şifer və Keramika məmulatları kombinatında texnoloq vəzifəsində çalışmışdır.

1983-1985 – ci illərdə Azərbaycan Xarici Dillər İnstitutunda 2 il alman dili üzrə axşam şöbəsində təhsil almışdır. 1986-1989 - cu illərdə Moskva Elmi-tədqiqat azbest-sement İnstitutunda elmi işçi kimi çalışmış, eyni zamanda aspiranturada təhsil almış və texnika elmlər namizədi dissertasiyasını müdafiə etmişdir. 1989-1991 – ci illərdə Bakı Şifer və Keramika məmulatları kombinatında sex rəisi, 1991-1993 – cü illərdə baş mühəndisin müavini, 1993-1994 – cü illərdə baş mühəndis, 1994-2006 - cı illərdə texniki director və baş direktorun müavini vəzifələrində işləmişdir. Eyni zamanda 1990-1991 – ci illərdə Azərbaycan İdarəetmə Kollecində xarici iqtisadi əlaqələr ixtisası üzrə təhsil almışdır. 1995-ci ildə Almaniyanın Şlezvik – Holşteyn Akademiyasının Azərbaycan filialında 6 ay kurs keçmiş və bazaar iqtisadiyyatı üzrə dosent diplomunu almışdır.

2006-2008 – ci illərdə Tacikistan Respublikasında “ Tacik Şifer” ASC – də baş texnoloq işləmişdir. 2009-2011 – ci illərdə “ Qaradağ – S” MMC – də sement laboratoriya rəisi işləmişdir.

2011-2014 – cü illərdə Azərbaycan Respublikası Standartlaşdırma Metrologiya və Potent üzrə Dövlət komitəsinin təcrübə-sınaq mərkəzində laboratoriya müdiri vəzifəsində işə başlamışdır. Hazırda orada direktor müavini vəzifəsində işləyir.